# Süni beyin yaradıblar

Avstraliyanın Melburn Kral Texnologiya Universitetinin alimləri beynin bioloji funksiyalarını təqlid edən mikroçip - süni beyin yaradıblar.

Yeni texnologiyanın əsasında optogenetika (prosesə işıq təsirinin köməyilə nəzarət etmək qabiliyyəti) dayanır. Mikroçip elektrik müqavimətinin müsbətdən mənfiyə doğru dəyişilməsi üçün işıq dalğalarından istifadə edir və bu da sinir əlaqələrinin formalaşmasına və qırılmasına səbəb olur. Süni intellektin əsasında yaranan bu sistemin daha da inkişaf etdirilməsi nəzərdə tutulur.

# Yoxa çıxmış sualtı qayıq tapılıb

Fransa Müdafiə Nazirliyinin təşkil etdiyi axtarış qrupu 51 il əvvəl yoxa çıxmış fransız sualtı qayığını tapıb.



1968-ci ilin yanvarında Fransanın cənubundakı Tulon limanının yaxınlığında yoxa çıxan "Minevre" adlanan bu sualtı qayığın göyərtəsində 52 dənizçi olub. Onun axtarışı uzun illər davam edib, lakin heç bir nəticə verməyib.

Bu ilin əvvəlində axtarış qrupu yeni texnologiyaların köməyi ilə sualtı qayığın qəzaya uğradığı yerin ətrafındakı əraziləri təhlil edib. ABŞ-ın "Ocean Discovery" şirkətinə məxsus olan sualtı gəminin köməyi ilə axtarışlara başlanılıb. Yoxa çıxmış sualtı qayıq Tulon limanından 45 kilometr aralıda 2,370 metr məsafədə aşkar olunub.

# İdman xəbərləri

## Cüdoçumuz bürünc medal qazandı

"Qəbələ" İdman Klubunun cüdoçusu Gülşən Başirova Bakıda keçirilən XV Avropa Gənclər Yay Olimpiya Festivalında uğurla çıxış edib. Klubumuzun yetirməsi olan gənc cüdoçu 44 kq çəkidə qüvvəsini sınayıb.

Gülşən Başirova ilk mərhələdə Mariya Qonzalesə (İspaniya) qalib gəldikdən sonra Anastasiya Balabana (Bolqarıstan) məğlub olub.



Gülşən təsəlliverici qarşılaşmada polşalı Natalya Stoklosanı mübarizədən kənarlaşdırıb. Cüdoçumuz 3-cü yer uğrunda görüşdə hollandiyalı Joşlin Supusepa ilə üz-üzə gəlib. Yarışda 3-cü qələbəsini qazanan Başirova festivalın bürünc mükafatına yiyələnib.

Xatırladaq ki, Qəbələnin Abrıx kəndindən olan istedadlı cüdoçu 16 yaşını bu ilin fevralında qeyd edib. O, "Qəbələ" İdman Klubunun rayon bölməsinin yetirməsidir.

## Cüdoçumuz Avropa kubokunun finalında



"Qəbələ" İdman Klubunun cüdoçusu İmran Yusifov gənclərin Avropa kubokunun finalına yüksəlib. O, Çexiyanın paytaxtı Praqada təşkil olunan yarışa ardıcıl 3 qələbə ilə başlayıb. +100 kq çəki dərəcəsində çıxış edən idmançımız ukraynalı Yevgeni Belyavski və almaniyalı Yonas Şreyberi məğlub edərək yarımfinala yüksəlib.

Finalın bir addımlığında digər almaniyalı Fabian Meyerə qalib gələn İmran həlledici qarşılaşmaya vəsiqə əldə edib. O, finalda Xorvatiya təmsilçisi Marsel Şkaletslə görüşəcək.

# Faydalı bitkilər

## Limonun bilmədiyimiz faydası

Xalq təbabətində limon müxtəlif xəstəliklərdən xilas olmağın əsas çarəsi hesab edilir. Buna görə də müxtəlif dərman vasitələrinin hazırlanması zamanı immuniteti artırmaq, mədə və qaraciyər xəstəliklərini aradan qaldırmaq üçün çox vaxt limon cövhərindən istifadə edirlər.

Limonun tərkibindəki vitaminlər və minerallar orqanizmin infeksiyalara qarşı müqavimət



qabiliyyətini artırmaq üçün immuniteti bərpa edir. O, toksinləri və xolesterini xaric edir, qaraciyərdə mübadilə proseslərini sürətləndirir.

Limon şirəsi qaraciyərdə mürəkkəb zülalları parçalayan fermentlər yaradır. Limon qaraciyərin sanki süzgəcdən keçirdiyi qanı durulaşdırır. Qaraciyərin işində nasazlıq yarandıqda qan laxtalanır və tromblar yaranır.

Mütəxəssislər limonu ət və balıq xörəklərinə ətirli ədva kimi qatmağı, limonun mətindən və şirəsindən isə bişintilər üçün içlik kimi istifadə etməyi, səhərlər limonlu çay əvəzinə bir stəkan limonlu su içməyi məsləhət görürlər. Bu, bütün orqanizmi gümrahlaşdırır, piy toxumalarının parçalanması prosesini sürətləndirir.

# Bunları bilmək maraqlıdır

- *Dünyanın ilk şəxsi kompüteri 1980-ci ildə IBM tərəfindən yaradılan IBM 5120 kompüteridir. 59 kq çəkiyə malik olan xarici disket sürücüsünü nəzər almamaq şərtilə kompüterin çəkisi 47 kq olub.*
- *Ümumilikdə 126 milyon Nokia 3310 telefonu satılmışdır.*
- *Dünyada ilk transplantasiya əməliyyatı 1883-cü ildə isveçrəli cərrah Teodor Koxer tərəfindən aparılmışdır: o, gənc kişidə qalxanabənzər vəzini dərialtı qarın nahiyəsinə köçürmüşdür.*
- *Braziliyangn məşhur futbolçularından biri olan Qarrinzanın sağ ayağı sol ayağından 6 santimetr daha qısa idi.*
- *Dünyanın ən zəhərli ilanları Keymada Qrandi adasında məskunlaşıb.*
- *Çinlilərdən qorxma qorxusu Sinofobiya adlanır.*
- *Bir zürafənin boynundakı onurğa sümüklərinin sayı insanda olan onurğa sümüklərinin sayına bərabərdir.*
- *İnsan böyüdükcə ürək döyüntülərinin sayı da azalır.*
- *İlbizlər 3 il yata bilirlər*
- *Dünyada ən çox koka-kolanı İslandiya əhalisi içir.*


QƏBƏLƏ
Qəbələ rayonunun ictimai-siyasi qəzeti
qəzetinə
2019-cu ilin ikinci yarısı üçün abunə yazılışı davam edir
Yarımillik abunə qiyməti 15 manatdır.
*Qəzetimizə «Kapitalbank»ın Qəbələ filialında abunə yazılmaq olar.*
*Hesab № AZ36AİİB 33080019444900218149. VÖEN 4400103601.*
Redaksiyanın ünvanı: Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56 (rayon icra hakimiyyətinin inzibati binası, I mərtəbə).
Telefonlar: (024)205-19-14, (024)205-15-56, mob. (050) 671-06-94.



«QƏBƏLƏ» qəzetinin reklam xidməti
205-19-14, 205-15-56


# İtmişdir

Azərbaycan Respublikası ƏMDR yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin Qəbələ Ərazi İdarəsi tərəfindən Həmzəli kənd skini **Hacıyeva Gülnarə Ağəli qızına** 29 yanvar 2011-ci il tarixdə verilmiş MA seriyalı 0162112 nömrəli (reyestr nömrəsi 406013007931, qeydiyyat nömrəsi 1911000162) hüquqların dövlət qeydiyyatı haqqında **çıxarış** və 29 yanvar 2011-ci il tarixli AA seriylı 008047 nömrəli (reyestr nömrəsi 406013007931, inventar nömrəsi 406-5(141) **torpaq sahəsinin planı və ölçüsü** itdiyi üçün etibarsız sayılır.

---

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 28 oktyabr 1998-ci il tarixli 19 nömrəli qərarı ilə Vəndam qəsəbə (əvvəlki kənd) sakini **Məhəlliyeva Cəmilə Süleyman qızına və ailə üzvlərinə** verilmiş JN seriyalı 1302 A nömrəli (kod 40600048) **torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

---

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 26 noyabr 1997-ci il tarixli 26 saylı qərarı ilə Daşca kənd sakini **İsmayılov Eyvaz Bayram oğluna və ailə üzvlərinə** verilmiş JN seriyalı 0881 nömrəli (kod 40608028) **torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

---

**Mustafayev Azad Əliyəddin oğluna** məxsus «KamAZ» avtomaşını yedəyinin 54 ZA 049 nömrəli **dövlət qeydiyyat nişanı** itdiyinə görə onu tapanlardan həmin nişanı Qəbələ Rayon Polis Şöbəsinə təhvil verməsi xahiş olunur.

---

Qəbələ Rayon Hərbi Komissarlıq tərəfindən Zarağan kənd sakini **Abbasov Vüqar Yaşar oğluna** verilmiş AO seriyalı 1232772 nömrəli **hərbi bilet** itdiyi üçün etibarsız sayılır.

---

Azərbaycan Respublikası ƏMDK yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin Qəbələ Ərazi İdarəsi tərəfindən 07 sentyabr 2012-ci il tarixdə **Yusifov Müşviq Oktay oğluna** verilmiş RX seriyalı 0045748 nömrəli (reyestr nömrəsi 406013 011432, qeydiyyat nömrəsi 1912005717) hüquqların dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın dövlət reyestrindən **çıxarış** və 06 sentyabr 2012-ci il tarixli AA seriyalı 013530 nömrəli (reyestr nömrəsi 406013011432) **torpaq sahəsinin planı və ölçüsü** itdiyi üçün etibarsız sayılır.

---

Azərbaycan Respublikası ƏMDK yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin Qəbələ Ərazi İdarəsi tərəfindən 07 sentyabr 2012-ci il tarixdə **Yusifova Arzu Şahverdi qızına** verilmiş RX seriyalı 0045747 nömrəli (reyestr nömrəsi 406013011434, qeydiyyat nömrəsi 1912005716) hüquqların dövlət qeydiyyatı, haqqında daşınmaz əmlakın dövlət reyestrindən **çıxarış** və 06 sentyabr 2012-ci il tarixli AA seriyalı 013531 nömrəli (reyestr nömrəsi 406013011 434) **torpaq sahəsinin planı və ölçüsü** itdiyi üçün etibarsız sayılır.

---

Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin Qəbələ Rayon Şöbəsi tərəfindən Qəbələ şəhər sakini **Abduləzizov Sahib Nuru oğluna** 10 iyul 2012-ci il tarixdə verilmiş A seriyalı 396836 nömrəli (qeydiyyat nömrəsi 106) **torpaq sahəsinin planı və ölçüsü** itdiyi üçün etibarsız sayılır.

---

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 26 may 1998-ci il tarixli 10 saylı qərarı ilə Kürd kənd sakini **Səlimov Ədalət Yaralı oğluna və ailə üzvlərinə** verilmiş JN seriyalı 205 nömrəli (kod 40610018) **torpağa mülkiyyət hüququna dair dövlət aktı** itdiyi üçün etibarsız sayılır.

# ALLAH RƏHMƏT ELƏSİN!

Qəbələ Rayon İcra Hakimiyyətini aparatının kollektivi RİH başçısının birinci müavini **Abil Ağasəfova** yaxın qohumu

**DAVUD ABDULLAYEVİN**

vəfatı ilə əlaqədar kədərləndiyini bildirir və dərin hüznlə başssağlığı verir.

---

«Qəbələ» qəzetinin kollektivi rayon icra hakimiyyəti başçısının birinci müavini **Abil Ağasəfova** yaxın qohumu

**DAVUD ABDULLAYEVİN**

vəfatı ilə əlaqədar kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Mehrəli Mehrəliyev, Eldar Quliyev, Emin Baratoğlu, Rasim Yaqubov, Əlövsət Aləmmədov, Cavid Ədilov, **Məlahət, Mübariz, Gündüz Dadaşovlara və yaxınlarına** əzizləri

**MƏRYƏM XANIMIN**

vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı verirlər.

---

Emin Baratoğlu və Cavid Ədilov ailələri ilə birlikdə **Məlahət, Mübariz və Gündüz Dadaşovlara** anaları

**MƏRYƏM DADAŞOVANIN**

vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı verirlər.

---

Səhiyyə işçiləri rayon mərkəzi xəstəxanası baş hakiminin müalicə işləri üzrə müavini **Fikrət Cəfərova** əmisi

**PƏNAH CƏFƏROVUN**

vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı verir.


Redaktor
Varis Yaqubov.

*TƏSİSÇİLƏR:*
Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.
*Redaksiya ilə müəllifin mövqeyi fərqli ola bilər*
*Məsul katib*
*Qüdrət Səmədov.*

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 226.
Redaktor: (024) 205-19-14.
Ümumi: (024) 205-15-56.
e-mail: news@qebele-ih.gov.az
Elanların və reklamların mətnlərinə görə redaksiya məsuliyyət daşımır.

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir.
Lisenziya AV № 022611
«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149
VÖEN: 4400103601

«Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «Azərmedia» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
*Dizayner Rais Rəşidov*
Oxucu məktublarına cavab verilmir və əlyazmaları geri qaytarılmır.
*Tiraj 1340*